**AZƏRBAYCAN RESPUBLİKASI**
**NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI**

# NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ VƏ NARKOMANLIĞA QARŞI MÜBARİZƏNİN NƏTİCƏSİNƏ DAİR

## İLLİK HESABAT
## 2022



AZƏRBAYCAN RESPUBLİKASI

NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI

# İLLİK HESABAT 2022

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2019-cu il 22 iyul tarixli, 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın 4.1.23-cü bəndinin icrası ilə əlaqədar Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən hazırlanmışdır.

AZE 1016, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 40,
Hökumət evi
www.nmdk.gov.az
info@nmdk.gov.az
(994 12) 498-58-82
(994 12) 498-25-28
(994 12) 493-35-74

802
Qaynar xətt:



*"Narkomaniya və narkobiznes ilə mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və şüuri sağlamlığı uğrunda aparılan mübarizədir"*

*Heydər Əliyev*
*Ümummilli Lider*



*"XXI əsrin çağrışlarından hesab edilən narkotiklərin qanunsuz dövriyyəsi bəşəriyyətin gələcəyinə böyük təhlükə yaradır"*

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

## MÜNDƏRİCAT


*Ön söz* 5

*Təşkilati tədbirlər* 8

*Normativ hüquqi bazanın təkmilləşdirilməsi* 13

*Beynəlxalq əməkdaşlıq* 16

*Narkomanlığa qarşı mübarizə sahəsində vətəndaş fəallığının artırılmasına yönələn tədbirlər* 19

*Hüquq mühafizə orqanları tərəfindən görülmüş işlər* 24

*Dünyada narkotiklərlə bağlı vəziyyətə dair təhlil* 41

*Narkotik asılılığı olan şəxslərin müəyyən edilməsi və müalicəsi, bu sahədə aparılan tədqiqatlar* 44

*Narkomanlığa qarşı təbliğat və profilaktika işinin təşkili* 55

# ÖN SÖZ

Müasir dövrün çağırışlarından hesab edilən narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq bu gün dünyanı narahat edən əsas problemlərdən biridir. Həmin problemin vurduğu ziyanın həcmi praktiki olaraq çox böyükdür və həm narkotik istifadəçisinin şəxsiyyətinin deqradasiyasına, həm də müxtəlif cinayətlər törədilməsinə, cəmiyyətin maddi-texniki və intellektual potensialının aşağı düşməsinə, genefondun pisləşməsinə və bir çox mənfi hallara gətirib çıxarır. Narkotiklərin qanunsuz dövriyyəsi bəşəriyyətin gələcəyinə, insanların, xüsusilə gənc nəslin sağlamlığına böyük təhlükə yaradır.

Bu baxımdan, dünya dövlətləri narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını daha da təkmilləşdirir, habelə beynəlxalq səviyyədə müvafiq nəzarət sisteminin tətbiqi sahəsində səylərini artırırlar.

Bəşəri bəla olan narkomaniyanın sərhəd tanımadan genişlənməsi ölkəmiz üçün həlli vacib məsələlərdən birinə çevrildiyindən, bu problem ilk dəfə "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti – Ümummilli Lider Heydər Əliyevin 1996-cı il 26 avqust tarixli 485 nömrəli Fərmanında öz əksini tapmaqla, dövlətimiz bütün qüvvə və imkanlarını səfərbər edib, bu bəlanın qarşısının alınması istiqamətində gedən əsaslı beynəlxalq mübarizəyə qoşulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir. Eyni zamanda ölkədə insanların sağlamlığının qorunması, mənəvi-əxlaqi dəyərlərin aşınmasının qarşısının alınması zərurəti narkomanlığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin əhəmiyyətini ciddi şəkildə artırmışdır.

Hesabat dövründə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğat, narkomanlığa düçar olmuş şəxslərin müalicə edilməklə sağlam həyata qaytarılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi sayəsində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi istiqamətində aparılan işlərin səmərəliliyinin daha da yüksəldilməsi üçün müvafiq zəruri tədbirlər görülmüşdür.

Belə ki, çağırışçıların, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanların, birbaşa kadr zabit heyətinə könüllü daxil olanların və həqiqi hərbi xidmət hərbi qulluqçularının icbari narkoloji müayinədən keçirilməsi və bu yolla narkomanlığın erkən müəyyən edilməsi və profilaktikası məqsədilə müvafiq qanunlar və qaydalar qəbul edilərək qüvvəyə minmişdir.

Bundan başqa, qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut hesab edilmiş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının, qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin, habelə narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək nümunə götürülməklə məhv edilməsini və ya istifadəsi mümkün olduqda müvafiq dövlət orqanına (qurumuna) verilməsini nəzərdə tutan müvafiq qanun qəbul edilmişdir.

Həmçinin narkotik vasitələrin və psixotrop maddələrin xeyli və xüsusilə külli miqdarının, prekursorların və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin xüsusilə külli miqdarının, habelə narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələrin xüsusilə külli miqdarının anlayışları təsbit edilərək, bu maddələrin qanunsuz dövriyyəsinə görə məsuliyyəti nəzərdə tutan cinayət tərkiblərinin yeni tövsifedici əlamətləri müəyyən edilmişdir.

# ÖN SÖZ

Hesabat ilində narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısının alınması sahəsində fəaliyyətlər gücləndirilmiş, sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı sosial maarifləndirmə işi daha da genişləndirilmiş, yeniyetmə və gənclər arasında narkomaniyaya qarşı təbliğat və maarifləndirmə işlərinin genişləndirilməsi və təsirli metodlarla təşkili məqsədilə tədbirlər planı hazırlanaraq təsdiq edilmiş, şəhər və rayon komissiyalarının fəaliyyətlərinin səmərəliliyinin artırılması, təbliğat və maarifləndirmə işlərinin daha da gücləndirilməsi və davamlılığının təmin edilməsi istiqamətində zəruri tədbirlər görülmüşdür.

2022-ci il ərzində hüquq mühafizə orqanları müasir telekommunikasiya və informasiya vasitələrinin imkanlarından istifadə edərək narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə işini gücləndirməklə 5 ton 470 kq narkotik vasitə və psixotrop maddə müsadirə edilmişdir ki, bu da 2021-ci illə müqayisədə 1 ton 136 kq və ya təxminən 21 faiz azdır. Müsadirə edilmiş narkotik vasitələrin və psixotrop maddələrin 2 ton 861 kiloqramı ölkəyə qaçaqmalçılıq yolu ilə gətirilmişdir.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar aşkar edilmiş cinayət faktlarının sayı 2021-ci ilə nisbətən 2105 fakt (təxminən 25 faiz) artaraq 10640-a çatmışdır. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar başlanılmış cinayət işlərinin istintaqı nəticəsində 8677 nəfər cinayət məsuliyyətinə cəlb edilmişdir. Cinayət məsuliyyətinə cəlb edilənlərin 99 nəfəri xarici ölkə vətəndaşıdır. Onlardan 48-i İran İslam Respublikası, 19-u Rusiya, 15-i Türkiyə, 10-u Gürcüstan, 2-si Ukrayna, 2-si Türkmənistan, 1-i Qazaxıstan, 1-i Pakistan və 1-i Maldiv vətəndaşı olmuşdur. Narkomanlıq diaqnozu ilə qeydiyyatda olanların sayı 2022-ci il ərzində 35097 nəfər şəxs təşkil etmişdir.

Həmçinin 2022-ci il ərzində narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilən tədbirlərə dair monitorinqlər aparılmış və nəticələri Komissiyanın iclaslarında müzakirə edilmiş, aidiyyəti dövlət qurumları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlıq təmin edilmiş, effektiv və təsirli sosial videoçarxlar, sənədli filmlər, problemin mahiyyətini ifadə edən video materiallar televiziya kanalarında mütəmadi olaraq nümayiş olunmuş, maarifləndirmə və antinarkotik təbliğat işlərinin sosial şəbəkələrin və onlayn medianın imkanlarından istifadə edilərək əhatəsi daha da genişləndirilmişdir.

Bununla yanaşı müasir çağırışları dəstəkləyən və proqressiv mübarizə üsullarının tətbiqi yolu ilə narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısının alınması sahəsində fəaliyyətlərin gücləndirilməsi, narkoloji xidmətin təkmilləşdirilməsi, narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin həyata keçiriləcəyi tibb müəssisəsinin fəaliyyətinin təmin edilməsi, təbliğat işlərinin səmərəliliyinin daha da artırılması, qeyri-hökumət təşkilatları ilə birlikdə sosial və maarifləndirmə xarakterli tədbirlərin həyata keçirilməsi, narkomanlığın xüsusilə geniş yayıldığı şəhər və rayonlarda asudə vaxtın səmərəli təşkili məqsədilə yeniyetmə və gənclərə xidmət göstərən dövlət müəssisələrinin fəaliyyətinin inkişaf etdirilməsi, bu sahədə çalışan mütəxəssis və əməkdaşların biliklərinin, bacarıqlarının və peşəkarlıq səviyyəsinin artırılması ilə bağlı aidiyyəti qurumlar qarşısında konkret vəzifələrin qoyulmasına dair müvafiq qərarlar qəbul edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizin inkişafı, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunması, gənclərin vətənpərvər kimi yetişməsi ilə bağlı aydın və konkret baxışlara, siyasi iradəyə malik olması, narkomanlığa və

# ÖN SÖZ

və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə hüquq mühafizə orqanlarından konkret nəticələrin tələb edilməsi müəyyən edilmiş vəzifələrin reallaşmasına təminat verir.

Dünyanı narahat edən bu problemə qarşı mübarizə sahəsində Azərbaycan Respublikasında aparılan ardıcıl və məqsədyönlü işlər, qəbul edilmiş bır sıra mühüm normativ hüquqi aktlar, həyata keçirilən zəruri institusional tədbirlər qurumlararası əmək- daşlığı daha da möhkəmləndirəcək və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə mübarizə işinə öz töhfəsini verəcəkdir.

## Əli Əhmədov

**Azərbaycan Respublikası Baş nazirinin müavini,**
**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz**
**Dövriyyəsinə Qarşı Mübarizə üzrə**
**Dövlət Komissiyasının sədri**

# TƏŞKİLATİ TƏDBİRLƏR

NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ

DÖVLƏT KOMİSSİYASI

## TƏŞKİLATİ TƏDBİRLƏR

Ötən ilin mart ayının 11-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri cənab Əli Əhmədovun sədrliyi ilə ötən il ərzində aidiyyəti nazirlik, komitə və digər təşkilatlar tərəfindən görülmüş işlərin müzakirəsi üzrə Komissiyanın videokonfrans formatında növbəti iclası keçirilmiş və qarşıda duran vəzifələrin icrası, narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısının alınması sahəsində fəaliyyətlərini gücləndirilməsi,




müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, narkoloji müalicə müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi, reabilitasiya mərkəzlərinin yaradılması, yeniyetmə və gənclər arasında təbliğat və maarifləndirmə işlərinin təsirli vasitələrlə təşkili, narkomanlığın xüsusilə geniş yayıldığı şəhər və rayonlarda narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı kompleks tədbirlər hazırlayıb həyata keçirilməsi və digər zəruri tədbirlərin icra edilməsi istiqamətində səmərəliliyin daha da artırılması ilə bağlı aidiyyəti qurumlar qarşısında konkret vəzifələrin qoyulmasına dair müvafiq qərar qəbul edilib.



## TƏŞKİLATİ TƏDBİRLƏR

2022-ci il mayın 20-də narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilən tədbirlərin müzakirəsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetində görüş keçirilmişdir.

Tədbirdə ötən ilin yanvar-aprel ayları ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə ilə bağlı kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilən işlərin nəticələri və qarşıda duran vəzifələr müzakirə edilmiş və tanınmış ictimai,



incəsənət və idman ustalarının iştirakı ilə mövzuya həsr olunmuş təbliğat xarakterli kütləvi tədbirin təşkil edilməsi,narkomanlığın yayılma dərəcəsinin və miqyasının dəqiqləşdirilməsi məqsədilə sosial araşdırmaların aparılması, effektiv və təsirli yeni sosial çarxların hazırlanaraq kütləvi informasiya vasitələri və sosial şəbəkələr vasitəsilə geniş işıqlandırılması, psixoaktiv maddələrdən istifadənin risk amilləri, insan sağlamlığına, ailə dəyərlərinə zərərli təsiri və problemin mahiyyətini ifadə edən xüsusi verilişlərin təşkil edilməsinin davam etdirilməsi ilə əlaqədar müvafiq tövsiyələr verilmiş və qərarlar qəbul edilmişdir.



## TƏŞKİLATİ TƏDBİRLƏR

Görülən işlərin davamı olaraq ötən il noyabrın 25-də narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilən tədbirlərin müzakirəsi məqsədilə Nazirlər Kabinetində növbəti görüş keçirilmişdir.



Görüşdə aidiyyəti dövlət qurumları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlığın daha da gücləndirilməsi, effektiv və təsirli sosial videoçarxların, sənədli filmlərin, psixoaktiv maddələrdən istifadənin risk amilləri, insan sağlamlığına zərərli təsiri və problemin mahiyyətini ifadə edən video materialların hazırlanması, maarifləndirmə və antinarkotik təbliğat işlərinin sosial şəbəkələrin və onlayn medianın imkanlarından istifadə edilərək əhatəsinin daha da genişləndirilməsi, sağlam həyat tərzinin təbliğinə həsr edilən mədəni kütləvi tədbirlərin və marafon yürüşlərinin keçirilməsinə dair müvafiq tövsiyələr verildi və qərarlar qəbul olundu.



# TƏŞKİLATİ TƏDBİRLƏR

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.23-cü yarımbəndinin icrası ilə əlaqədar narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində 2021-ci ildə görülmüş işlərə dair hesabat hazırlanaraq, jurnal formasında nəşr edilmişdir.




Dövlət Komissiyasının nmdk.gov.az saytının proqram təminatı təkmilləşdirilmiş və elektron informasiya resursunda statistik məlumatların əlçatanlığınındaha asan təmin edilməsi məqsədi ilə əlavə olaraq “İllik hesabatlar” bölümü də yaradılmışdır.






# NORMATİV HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ

## NORMATİV HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.2.5-ci yarımbəndinə uyğun olaraq, çağırışçıların, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanların, birbaşa kadr zabit heyətinə könüllü daxil olanların və həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) icbari narkoloji müayinədən keçirilməsi və bu yolla narkomanlığın erkən müəyyən edilməsi və profilaktikası məqsədilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası qanunlarının layihələri hazırlanaraq 2021-ci il 2 sentyabr tarixində Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmiş və bununla bağlı 2022-ci il 26 aprel tarixində müvafiq qanunlar qəbul edilərək qüvvəyə minmişdir.

Bundan sonra, Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.2.5-ci yarımbəndinin icrasının davamı olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən aidiyyəti qurumların rəy və təklifləri nəzərə alınmaqla "Müddətli həqiqi hərbi xidmətə çağırılan, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olan və birbaşa kadr zabit heyətinə könüllü daxil olan şəxslərin, habelə həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) icbari narkoloji müayinədən keçməsi Qaydası"nın hazırlanması təmin edilmiş, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 yanvar tarixli 4 nömrəli Qərarı ilə həmin Qayda təsdiq edilmişdir.

Bundan başqa, qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut hesab edilmiş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının, qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin), habelə narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək nümunə götürülməklə məhv edilməsini və ya istifadəsi mümkün olduqda müvafiq dövlət orqanına (qurumuna) verilməsini nəzərdə tutan "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi hazırlanaraq, 2021-ci il 9 noyabr tarixində Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmiş və bununla bağlı 2022-ci il 26 aprel tarixində müvafiq qanun qəbul edilərək qüvvəyə minmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.2.1-ci yarımbəndinə müvafiq olaraq, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 131-1.4-cü maddəsinin tələblərinə əsasən cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi qaydasının müəyyən edilməsi məqsədilə, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən aidiyyəti

## NORMATİV HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ

qurumların rəy və təklifləri nəzərə alınmaqla "Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi Qaydası"nın layihəsi hazırlanaraq 25 oktyabr 2022-ci il tarixində 18/638 nömrəli məktubla Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına razılaşmaya göndərilmiş və müvafiq razılıq verildikdən sonra həmin Qayda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2023-cü il tarixli 44 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 26 aprel 2022-ci il tarixli 516-VIQD nömrəli Qanunu ilə Cinayət Məcəlləsində narkotik vasitələrin və psixotrop maddələrin xeyli və xüsusilə külli miqdarının, prekursorların və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin xüsusilə külli miqdarının, habelə narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələrin xüsusilə külli miqdarının anlayışları təsbit edilərək, bu maddələrin qanunsuz dövriyyəsinə görə məsuliyyəti nəzərdə tutan cinayət tərkiblərinin yeni tövsifedici əlamətləri müəyyən edilmişdir.



# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ



## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

2023-cü ildə narkotiklərlə mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlıq inkişaf etdirilmişdir. Bu məqsədlə aidiyyəti dövlət qurumlarının mütəxəssislərinin Hüquq-mühafizə Təlimləri üzrə Avropa İttifaqı Agentliyinin (CEPOL) "Narkotik vasitələrin qaçaqmalçılığı üzrə tədqiqatlar" mövzusunda vebinarda və "Narkotik vasitələrin qaçaqmalçılığı-sintetik narkotik vasitələr" mövzusunda subregional təlimdə, Asiya və Sakit Okean hövzəsi ölkələrinin Narkotiklərlə əlaqəli məsələlər üzrə məsul milli hüquq mühafizə orqanları rəhbərlərinin 44-cü iclasında, BMT-nin



Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin və Ümumdünya Gömrük Təşkilatının birgə layihəsi çərçivəsində "Qlobal Konteyner Daşımalarına Nəzarət Proqramı" adlı təlimdə, Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, eləcə də kontrafakt dərman preparatlarının qaçaqmalçılığına qarşı mübarizə işi sahəsində gömrük əməkdaşlarının məlumatlığının artırılması" mövzusunda seminarda, Misir Ərəb Respublikasının Qahirə şəhərində Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) ilə həmin ölkənin Adminstrativ Nəzarət Qurumunun birgə təşkilatçılığı ilə Şarm əl-Şeyx Bəyannaməsinin icrası üzrə Ekspert görüşündə, BMT-nin Narkotiklər və

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ




Cinayətkarlıq üzrə İdarəsinin "BMTNCİ-nin narkotiklər üzrə məlumatların toplanması sahəsində Mərkəzi Asiya və Qafqaz ölkələri üçün regional iclas" mövzusunda keçirilmiş onlayn konfransında, BMT-nin Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Konvensiyasına tərəf dövlətlərin konfransının beynəlxalq əməkdaşlıq üzrə işçi qrupunun 13-cü sessiyasında, Narkotiklər və Narkotik Aludəçiliyi üzrə Avropa Monitorinq Mərkəzinin "Sintetik narkotiklər" mövzusunda keçirilmiş onlayn təlimində, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin narkotiklərdən istifadə nəticəsində yaranan sağlamlıq problemlərinin müalicəsinə dair keyfiyyət təminatı və qayğı göstərilməsi üzrə Paris Paktı təşəbbüsü İşçi Qrupunun onlayn iclasında, Avropa Şurasının Narkotik və Asılılıqlar üzrə Beynəlxalq Əməkdaşlıq Qrupunun (Pompidu Qrupu) daimi müxbirlərinin 90-cı iclasında, BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının (NVK) onlayn formatda keçirilən 65-ci sessiyasında, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya üzrə Regional İnformasiya və Əlaqələndirmə Mərkəzinin (MARİƏM) üzv dövlətlərinin milli əlaqələndirici qurumlarının mütəxəssislərinin işçi görüşündə və digər tədbirlərdə iştirakı təmin edilmişdir.



# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

Qaynar xətt: **802**

www.nmdk.gov.az

info@nmdk.gov.az

## NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.38-ci yarımbəndinə uyğun olaraq, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən hazırlanmış "802 qaynar xətt" telefon xidmətinin fəaliyyət istiqamətlərinə dair videoçarxın Bakı şəhərinin küçə və prospektlərində olan reklam lövhələrində, metro stansiyalarında olan monitorlarda, özəl ticarət və tibb mərkəzlərində, habelə ölkə üzrə bütün televiziya kanallarının efirlərində mütəmadi olaraq yayımlanması təmin edilmişdir.






Bundan əlavə Azərbaycanda televiziya kanallarının reytinqlərinin ölçülməsi üzrə yeni tətbiq olunan sisteminin imkanlarından istifadə edilərək, 01-22 noyabr tarixləri üzrə "802 Qaynar xətt" sosial çarxın 4 milyon 548 min televiziya izləyicisi tərəfindən baxıldığı müəyyən edilmişdir.






## NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

Həmçinin "Narkotik sərhədsiz fəlakətdir", "Çalış ki, narkotikə hədəf olmayasan" adlı videoçarxlar və "802-Qaynar xətt" xidmətinin fəaliyyət istiqamətlərinə dair hazırlanmış sosial rolik "AZTV", "Ictimai TV", "Mədəniyyət TV", "İdman TV", "Space TV", "ATV", "Xəzər TV", "ARB", "Real TV" və "CBC Sport TV" kanallarının efirlərində 2022-ci ilin 9 ayı ərzində ümumilikdə 21984 dəfə yayımlanmışdır.




Bununla əlaqədar qeyd edilməlidir ki, ötən ildə "802 qaynar xətt" telefon xidmətinə 2172 vətəndaş müraciəti daxil olub. Onların 272-si narkotik vasitələrin qanunsuz dövriyyəsi, 821-i narkotik asılılıqdan müalicə, 1079-u isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izahı, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Eyni zamanda, ötən ilin müvafiq dövrü ilə müqayisədə Qaynar xətt zəng xidmətinə 1042-dən çox müraciət daxil olub. Onlardan 68-i narkotik vasitələrin qanunsuz dövriyyəsi, 462-si könüllü müalicə, 512-si isə şifahi xarakterli müraciətlər ilə bağlı olub

**2021/2022-ci illər ərzində 802 qaynar xətt telefon xidmətinə daxil olan müraciətlər barədə müqayisəli məlumat**

| | 2021-ci il | 2022-ci il | Fərq | %-lə |
|---|---|---|---|---|
| **Cəmi** | 1130 | 2172 | +1042 | +92,2 |
| **Müalicə** | 359 | 821 | +462 | +128,7 |
| **Satış** | 204 | 272 | +68 | +33,3 |
| **Digər** | 567 | 1079 | +512 | +90,3 |

# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

Dövlət Komissiyasının www.nmdk.gov.az internet saytında olan "Onlayn müraciət" bölməsinə 23 müraciət daxil olmuş, onlardan 10-u narkotik vasitələrin qanunsuz satışı, 10-u narkomaniyadan müalicə, 3-ü isə digər məsələlər ilə bağlı olmuşdur.



Yeni Müraciət:

Kimdən info@nmdk.gov.az Tarix 2022-02-28 10:14

| | |
|---|---|
| Adı Soyadı Ata adı | Teymur Baxşəliyev Ağali |
| Ölkə | Azərbaycan |
| Şəhər | Yevlax şəhəri |
| Ünvan | Fizuli küçəsi döngə 1 |
| Təvəllüd | 1977 |
| Telefon | 070-809-92-02 |
| E-poçt | Etibar ismayilzade@mail.ru |
| Sosial Durum | işsiz |
| Cinsi | kişi |
| Müraciətin növü | Təklif |
| Müraciətin xarakteri | Fərdi |

Mesaj:

Salam sizdən xahiş edirəm ki qardaşım narkotik istifadəçisidi və bunan əziyyət çəkir özü öz razılığı ilə sizə müraciət edir ki ona köməklik edesiz sizdən xahiş edirəm ki qardaşima köməklik edin .

Beləliklə, "802 qaynar xətt" telefon xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısının alınması məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təşkil edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında cinayət işlərinin başlanılması qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında cinayət işlərinin başlanılması və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələrin götürülməsi təmin edilmiş, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilmiş, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək göstərilmiş, vətəndaşlara mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilmişdir. Narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısının alınmasında vətəndaşların aktiv fəaliyyət göstərməsi üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübirizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun rəsmi sosial şəbəkə hesabları (feysbuk, instaqram, yutub, teleqram, twitter) yaradılmış, həmin hesabların ictimaiyyət arasında geniş təbliğ olunması təmin edilmişdir.

# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR











# HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

2022-ci ildə hüquq mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 10640 cinayət faktı aşkarlanmışdır. Onlardan 3441-i narkotik vasitələrin qanunsuz satışı, 6711-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 392-si qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 96-sı isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olmuşdur.

### 2022-ci il ərzində narkotik vasitələrlə bağlı qeydiyyata alınmış cinayət faktları

3441 – Satış

6711 – Saxlama

392 – Əkin

96 – Digər

10640 – Cəmi

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 5 ton 470 kq 567,089 qr narkotik vasitələrin və psixotrop maddələrin 2 ton 131 kq 813 632 qr-nı heroin, 2 ton 086 kq 073,304 qr-nı marixuana, 295 kq 360,737 qr-nı tiryək, 42 kq 299,394 qr-nı həşiş, 261 qr-nı kokain, 148 kq 312,557 qr-nı digər narkotik vasitələr və 766 kq 446,465 qr və 524 ədəd psixotrop maddə təşkil etmişdir. Həmçinin, göstərilən dövr ərzində 38617 ədəd metadon, 80145 ədəd çətənə və xaş-xaş bitkisi, 2 kq 350,5 qr və 21596 həb, 2048 kapsul güclü təsir edən maddə, 10 kq 037,6 qr zəhərli maddə, 77,3 qr prekursor qanunsuz dövriyyədən götürülmüşdür.

**2021-2022-ci illər ərzində qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr**

| | 2021-ci il | 2022-ci il | Fərq |
|---|---|---|---|
| **Cəmi** | 6 ton 607 kq 123,927 qr | 5 ton 470 kq 567,089 qr | -1 ton 136 kq 556,838 qr |
| **Marixuana** | 1 ton 266 kq 430,794 qr | 2 ton 086 kq 073,304 qr | +819 kq 642,51 qr |
| **Həşiş** | 74 kq 718,36 qr | 42 kq 299,394 qr | -32 kq 418,966 qr |
| **Tiryək** | 827 kq 729,995 qr | 295 kq 360,737 qr | -532 kq 369,218 qr |
| **Heroin** | 3 ton 637 kq 450,107 qr | 2 ton 131 kq 813,632 qr | -1 ton 505 kq 636,475 qr |
| **Kokain** | 90 qr | 261 qr | +171 qr |
| **Psixotrop maddələr və digərləri** | 800 kq 704,671 qr | 914 kq 759,022 qr | +114 kq 054,351 qr |

## 2022-ci il ərzində hüquq mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr




## 2022-ci il ərzində hüquq mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr



## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Təqdim olunan hesabatlar təhlil olunarkən müəyyən edilmişdir ki, ötən il ərzində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı aşkar edilmiş 10445 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 3 ton 753 kq 529,5 qr narkotik vasitələr və psixotrop maddələr (1 ton 574 kq 990,1 qr marixuana, 1 ton 500 kq 558 qr heroin, 172 kq 857, 8 qr tiryək, 21 kq 903, 9 qr həşiş, 147 kq 846 qr digər narkotik vasitələr,335 kq 373,7 qr psixotrop maddələr), habelə 1 kq 653,5 qr güclü təsir edən maddə, 7,3 qr prekursor, 10 kq 037,6 qr zəhərli maddələr çıxarılmış, 80145 ədəd çətənə və xaş-xaş bitkisi müəyyən edilərək müvafiq tədbirlər görülməsi üçün istintaq orqanlarına verilmişdir.




Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən aşkar edilmiş 75 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 915 kq 901 qr narkotik vasitələr və psixotrop maddələr (450 kq 522 qr heroin, 54 kq 975 qr tiryək, 261 qr kokain, 5 kq 106 qr həşiş, 27 kq 978 qr marixuana, 443 qr digər narkotik vasitələr, 376 kq 616 qr psixotrop maddələr), habelə 70 qr prekursor, 697 qr və 17658 ədəd həb güclü təsir edən maddə çıxarılmışdır.





Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən aşkar edilmiş 5 fakt üzrə qanunsuz dövriyyədən 79 kq 510,39 qr narkotik vasitələr (13 kq 126,48 heroin, 359,71 qr tiryək, 59 kq 531,82 qr marixuana, 6 kq 492,38 qr psixotrop maddələr və 3109 ədəd metadon) müsadirə edilmişdir.





Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən aşkar edilmiş 67 fakt üzrə qanunsuz dövriyyədən 721 kq 534,699 qr və 35 508 həb narkotik vasitə və psixotrop maddə (167 kq 549,352 qr heroin, 67 kq 162,227 qr tiryək, 423 kq 573,384 qr marixuana, 15 kq 289,494 qr həşiş, 22,057 qr və 35508 ədəd metadon, 47 kq 938,185 qr və 524 həb psixotrop maddə), eləcə də 3938 həb və 2048 ədəd kapsul güclü təsir edən maddə çıxarılmışdır. Bununla yanaşı, Xidmət tərəfindən 24,6 hektar sahədə yaş kütləsi 14 ton 572 kq olan 50076 ədəd yabanı halda bitmiş narkotik xassəli çətənə və xaş-xaş bitkiləri müəyyən edilərək müvafiq qaydada məhv edilmişdir.





Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən aşkar edilmiş 48 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 91,5 qr narkotik vasitə (57,8 qr heroin, 6 qr tiryək, 1,5 qr digər narkotik vasitələr və 26,2 qr psixotrop maddələr) çıxarılmışdır.





## 2022-ci ildə ekspertiza olunan narkotik vasitələrin və psixotrop maddələrin növü və çəkisi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə ekspertizası mərkəzi tərəfindən məhkəmə və hüquq mühafizə orqanlarının qərarlarına əsasən təyin edilmiş ekspertizalar əsasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları üzrə 12091 ekspert rəyi və arayış verilmişdir. 2021-ci ilin nəticələri ilə müqayisədə bu növ ekspertizaların sayı 1918 vahid və ya 18,8% artmışdır.

| № | Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları | Sayı | Çəkisi |
|---|---|---|---|
| 1. | Marixuana | 2277 | 2 t 496 kq 164,209 qram |
| 2. | Həşiş qətranı | 32 | 40 kq 434,261 qram |
| 3. | Çətənə (kannabis) | 589 | 10 t 872 kq 094,29 qram |
| 4. | Xaşxaş bitkisi | 2 | 830 qram |
| 5. | Sintetik kannabinoidlər (spice) | 3 | 0,031 qram |
| 6. | Heroin | 5505 | 2 t 181 kq 564,677 qram |
| 7. | Tiryək | 418 | 232 kq 189,923 qram |
| 8. | Metadon | 250 | 4 kq 52,532 qram |
| 9. | Metamfetamin | 2628 | 350 kq 247,180 qram |
| 10. | Kokain | 10 | 400,461 qram |
| 11. | MDA, MDMA (ekstazi) | 12 | 2 kq 417,420 qram |
| 12. | Zəhərli maddə | 6 | 7 kq 857,782 qram |
| 13. | Prekursor | 6 | 76,375 qram |
| 14. | Psixotrop maddələr | 29 | 406,302 qram |
| 15. | Güclü təsir edən maddələr | 136 | 48 kq 116,667 qram |
| 16. | Digər maddələr | 188 | müvafiq siyahılara daxil edilmədiyi üçün çəkisi üzrə qeydiyyat aparılmamışdır |

**Qeyd: Ekspertiza olunan narkotik vasitələrin və psixotrop maddələrin sayı, növü, miqdarı və çəkisi barədə digər məlumatlar Daxili İşlər Nazirliyinin müvafiq qurumu tərəfindən ekspertizadan keçirilmişdir.**

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Ötən ilin 05-06 may tarixlərində Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun təşkilatçılığı ilə 1430 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılan 2 ton 491 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə və psixotrop maddə, o cümlədən 27628 ədəd çətənə bitkisi aidiyyəti təşkilatların və kütləvi informasiya vasitələ rinin nümayəndələrinin iştirakı ilə yandırma yolu ilə məhv edilmişdir.














## Narkotik vasitələrin yeni “qarabazar” qiyməti

| Narkotik vasitələrin 1 kq dəyəri AZN ilə (minimum/maksimum) | | | |
|---|---|---|---|
| | | 01.01.2023-cü il tarixə olan vəziyyət | |
| | | minumum | maksimum |
| Topdan | Tiryək | 3000 | 3500 |
| | Heroin | 15000 | 20000 |
| | Marixuana | 6000 | 10000 |
| | Həşiş | 2500 | 3000 |
| | Kokain | 200000 | 200000 |
| | Metamfetamin | 18000 | 20000 |
| Pərakəndə | Tiryək | 7000 | 10000 |
| | Heroin | 30000 | 45000 |
| | Marixuana | 25000 | 30000 |
| | Həşiş | 4000 | 5000 |
| | Kokain | 200000 | 200000 |
| | Metamfetamin | 28000 | 30000 |

Hesabat dövründə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 557,283 hektar sahədən çəkisi 187 ton 325 kq 608,85 qr olan 404604 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilmişdir.

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR













Ötən il ərzində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 8677 nəfə cəlb edilmişdir ki, onlardan 16-18 yaş 13 nəfər, 18-25 yaş 601 nəfər, 26-29 yaş 1439 nəfər, 30 yaş və ondan yuxarı isə 6624 nəfər təşkil edir. Həmin şəxslərdən 8446-sı kişi, 231-i qadın olmuşdur. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 99 nəfəri xarici ölkə vətəndaşıdır.

## 2022-ci il ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə cinayət məsuliyyətinə cəlb olunmuş şəxslər




| 2021/2022-ci illər ərzində cinayət məsuliyyətinə cəlb olunanlar barədə müqayisəli cədvəl | | | | |
|---|---|---|---|---|
| | | 2021 | 2022 | Fərq |
| 1. | Cəmi | 6512 | 8677 | +2165 |
| 2. | 16-18 yaşadək | 11 | 13 | +2 |
| 3. | 18-25 yaşadək | 464 | 601 | +137 |
| 4. | 26-29 yaşadək | 1131 | 1439 | +308 |
| 5. | 30 yaş və ondan yuxarı | 4906 | 6624 | +1718 |
| 6. | İşləməyən və oxumayan | 4831 | 6248 | +1417 |
| 7. | Kişilər | 6376 | 8446 | +2070 |
| 8. | Qadınlar | 136 | 231 | +95 |
| 9. | Xarici ölkə vətəndaşları | 70 | 99 | +29 |
| 10. | Əvvəllər cinayət törətmişlər | 2388 | 2953 | +565 |
| 11. | Əvvəllər xüsusi qeydiyyatda olmuşlar | 23 | 33 | +10 |

Məsuliyyətə cəlb edilmiş 99 xarici ölkə vətəndaşından 48-i İran İslam Respublikası, 19-u Rusiya, 15-i Türkiyə, 10-u Gürcüstan, 2-si Ukrayna, 2-si Türkmənistan, 1-i Qazaxıstan, 1-i Pakistan və 1-i Maldiv vətəndaşı olmuşdur.

Xarici ölkə vətəndaşlarından ümumilikdə 1 ton 037 kq 687,84 qr və 4548 həb müxtəlif növ narkotik vasitə, psixotrop maddə və güclü təsir edən maddə, habelə 16759 ədəd narkotik tərkibli çətənə bitkisi götürülmüşdür.




2022-ci il ərzində hüquq mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı bağlı 276 fakt aşkar edilmiş (DİN-133, DGK-71, DTX-5, DSX-67) və həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 2 ton 861 kq 512,489 qr və 38617 ədəd metadon narkotik vasitə, 524 ədəd həb psixotrop maddə, 2048 kapsul və 3938 həb güclü təsir edən maddə (DİN-1 ton 149 kq 550,4 qr, DSX-721 kq 534,699 qr, 35508 ədəd həb metadon, 524 ədəd həb, narkotik vasitə, psixotrop maddə, 2048 ədəd kapsul və 3938 həb güclü təsir edən maddə, DGK-910 kq 917 qr, DTX-79 kq 510,39 qr, 3109 ədəd metadon) çıxarılmışdır.

| 2022 | Qaçaqmalçılıq yolu ilə aşkar edilmiş faktlar | Qrup halında aşkar edilmiş faktlar |
|---|---|---|
| **Daxili İşlər Nazirliyi** | 133 fakt | 399 fakt |
| **Dövlət Gömrük Komitəsi** | 71 fakt | 4 fakt |
| **Dövlət Təhlükəsizliyi Xidməti** | 5 fakt | 3 fakt |
| **Dövlət Sərhəd Xidməti** | 67 fakt | 14 fakt |
| **Cəmi** | 276 fakt | 420 fakt |

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 420-si qrup halında (DİN-399, DGK-4, DSX-14, DTX-3) törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən 2 ton 228 kq 760,564 qr və 7908 həb (DİN-1 ton 939 kq 217,7 qr narkotik vasitə, psixotrop maddə və 294,7 qr güclü təsir edən maddə, DGK-31 kq 383 qr, DSX-185 kq 893,834 qr və 9548 həb, DTX-72 kq 266,03 qr) narkotik vasitə, psixotrop maddə və güclü təsir edən maddə müsadirə edilmişdir.

**2021/2022-ci illər ərzində ölkə üzrə narkotiklərlə əlaqəli aşkar olunan faktlar barədə müqayisəli məlumat**

| | 2021-ci il | 2022-ci il | Fakt | %-lə |
|---|---|---|---|---|
| **Cəmi** | 8535 | 10640 | +2105 | +24,6 |
| **Satış** | 3267 | 3441 | +174 | +5,3 |
| **Saxlama** | 4780 | 6711 | +1931 | +40,4 |
| **Əkin** | 379 | 392 | +13 | +3,4 |
| **Digərləri** | 109 | 96 | -13 | -13,5 |

Təhlil göstərir ki, 2021-ci illə müqayisədə 2022-ci il ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 2105, o cümlədən qanunsuz satış ilə bağlı faktların sayı 174, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 1931, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 13 fakt, qaçaqmalçılıqla bağlı cinayətlərin sayı 32 fakt, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 2165 nəfər artmışdır. Həmçinin, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi isə 1 ton 136 kq 556,838 qr, qrup halında olan cinayətlərin sayı 32 fakt, bu kateqoriyadan olan digər cinayətlərin sayı 13 fakt azalmışdır.